# Tarix dərslərinin tədrisi metodikası təcrübəsindən

**Seyyub Əsədov**

**Müəllif:**
Seyyub Əsədov — Şirvan şəhər T.Bağırov adına 11 nömrəli tam orta məktəbin tarix müəllimi. Azərbaycan. E-mail: seyyub1967@gmail.com

**Açar sözlər:**
Yaradıcılıq, tarixin tədrisi, tədris prosesi, şəxsi təcrübə, metodika.

**Annotasiya.** Müəllim təkcə şagirdlərinə öyrənməyi öyrətmir, həm də onun özü öyrənir. «Tarix»in təliminə qiymət verilməsinin meyarı əldə edilən nəticələrdən – şagirdlərin qazandıqları bilik, bacarıq və vərdişlərin keyfiyyəti və həcmindən, əxlaqi keyfiyyətlərin tərbiyəsindən, maraqların oyanmasından, təhsilalanların ümumi inkişafından ibarətdir. Metodika dərs prosesinin pillələri üçün hazır reseptlər vermək vəzifəsini güdmür, müəllimi təlim prosesinin qanunauyğunluqları haqqında bilik və priyomlarla təchiz edərək onun metodiki ustalığı üçün daha əlverişli şərait yaradır. Şagirdlərin təfəkkürünün müntəzəm inkişafı, onlarda bacarıq və vərdişlərin formalaşması «Tarix» təliminin məqsədlərindən biri və tarixi biliklərin mənimsənilməsinin zəruri ilkin şərtidir. Bir çox pedaqoqların fikrincə, zehni fəaliyyət üsullarına yiyələnmək, bu üsulları şagirdlərin intelektual bacarıqlara çevirmək prosesi deməkdir. Tarix müəllimi, ilk növbədə aşkar etməlidir ki, o bu və ya digər sinifdə əvvəllər təşəkkül tapmış təcrübənin hansı dairəsinə istinad edə bilər. Ayrı-ayrı şagirdlərdə hansı bacarıqlar zəif inkişaf etmişdir və yaxud heç yoxdur. Yadda saxlamaq lazımdır ki, eyni yaşdan və sinifdən olan şagirdlər üçün bacarıqların inkişaf səviyyəsi müxtəlifdir. Məqalədə bu məsələlərə aydınlıq gətirilməyə çalışılmışdır.

**DOI:** 10.32906/AJES/683.2018.02.23

**Məqaləyə istinad:**
Əsədov S. (2018) *Tarix dərslərinin tədrisi metodikası təcrübəsindən.* «Azərbaycan məktəbi». № 3 (684), səh. 119–127

**Məqalə tarixçəsi**
Göndərilib: 12.10.2018; Qəbul edilib: 10.11.2018

# About the teaching methods of history lessons

**Seyyub Asadov**

**Author:**
Seyyub Asadov,
Shirvan city, Teacher of full-time secondary school No 11 named after T. Baghirov. Azerbaijan.
E-mail:
seyyub1967@gmail.com

**Keywords:**
Creativity, history teaching, learning process, personal experience, methodology.

**Abstract.** The teacher not only teaches students to learn, but also continues to learn. The criterion for evaluating the history of learning consists of the results obtained – the quality and volume of knowledge, skills and habits that students have gained, the upbringing of moral qualities, the curiosity of interest, and the general development of learners. The methodology does not provide the ready to give recipes for the stages of the lesson process, providing the teacher with knowledge and guidelines on the legality of the learning process and creates more favorable conditions for its methodological skills. Regular development of student mentality, the formation of skills and habits in them is one of the purposes of the «History» training and is a necessary prerequisite for mastering historical knowledge. According to many educators, learning the intellectual way of thinking is the process of transforming these skills into intellectual skills. The teacher of history should, first of all, discover that it can refer to what area of experience previously developed in one or another class. What skills are developed or disadvantaged in individual students? It should be remembered that the level of development of skills for students of the same age and grade is different. The article is trying to clarify these issues.

**DOI:** 10.32906/AJES/683.2018.02.23

**To cite this article:**
Asadov S. (2018) *About the teaching methods of history lessons.* Azerbaijan Journal of Educational Studies. Vol. 684, Issue III, pp. 119–127

**Article history**
Received: 12.10.2018; Accepted: 10.11.2018

## Giriş

Müəllim bütün fəaliyyəti dövründə öyrənməyə davam edir. O, başqa müəllimlərin təcrübəsindən, metodik ədəbiyyatdan çətin materialı izah etmək üçün maraqlı üsullar, orijinal dərs quruluşu, dərsdə problem-situasiyalar yaratmağa kömək edən suallar və s. seçir. Müşahidəçi müəllim, hər şeydən əvvəl, daha çox öz dərslərində öyrənir. O, praktikada özünü doğrultmuş iş üsullarını və tədris materiallarını öz «metodiki ehtiyatı»na daxil edir. Belə vasitələrin sayı çoxaldıqca müəllimin də metodiki ustalığı, məharəti artır. Tarix müəllimlərinin yaradıcılıq işi öz əksini metodiki ədəbiyyatda və tədris ədəbiyyatlarında tapır.

Tədrisə dair şəxsi və kollektiv təcrübənin toplanması, mübadiləsi, istifadə edilməsi ona görə mümkündür ki, müxtəlif siniflərdə məzmun ilə təlim üsulları və onun təhsil-tərbiyə nəticələri arasında ümumi asılılıq meydana çıxır: metodik cəhətdən bir qaydada tədris edilən material, təxminən, oxşar bilik səviyyəsində olan məktəblilər tərəfindən az-çox eyni səviyyədə mənimsənilir və onlara, analoji təsir bağışlayır. Əlbəttə, eyni üsullar heç də həmişə oxşar nəticələrə gətirib çıxarmır. Dərsin gedişinə müəllim və şagirdlərin maddi, mənəvi və psixoloji vəziyyəti də təsir göstərir. Təcrübəli müəllim bu şərtlərin təsirini xüsusilə nəzərə almağa çalışmalıdır. «Tarix» təliminin səmərəliliyinin şərtlərindən biri fənnin məqsədlərinin dəqiq surətdə müəyyən edilməsindən ibarətdir.

«Tarix» fənninin təliminə qiymət verilməsinin meyarı əldə edilən nəticələrdən: şagirdlərin qazandıqları bilik, bacarıq və vərdişlərin keyfiyyəti və həcmindən, əxlaqi keyfiyyətlərin tərbiyəsindən, maraqların oyanmasından, şagirdlərin ümumi inkişafından ibarətdir. Müasir dövrün şagirdləri informasiyanı yenidən işləyib hazırlamağı və dərk etməyi bacarırlar. Mənimsənilən materialın həcmi, mənimsəmənin möhkəmliyi, tərbiyəvi təsirinin gücü nəticə etibarilə təlim prosesində şagirdlərin tədris fəaliyyətinin xarakterindən, intensivliyindən, tarixi faktları dərk etməsindən asılıdır. Məktəbli təlim prosesində passiv dinləyici yox, prosesin fəal iştirakçısı olduqda faydalılıq artır. Yeni təhsil sistemi də şagirdlərdən bunu tələb edir. Şagirdlərin tədris fəaliyyətinə təlim prosesinin təşkilatçısı olan müəllim başçılıq edir. Onun dərs prosesində tətbiq etdiyi bu və ya digər təlim priyomunun təsirliliyi öyrənilən materialdan, təlimin məqsədlərindən, şagirdlərin hazırlıq dərəcəsindən, maraqlarından, bacarıqlarından və s. asılıdır. Müəllimin aşağıdakı suallara cavab verməyi bacarması onun pedaqoji ustalığından asılıdır:

1) Nə üçün öyrətməli? (təlimin məqsədi);
2) Nəyi öyrətməli? (təlimin məzmunu);
3) Necə öyrətməli, yəni məktəblinin tədris fəaliyyətini necə təşkil etməli? (tədrisin metodları, priyomları və dərs vəsaitləri).

Nəzərə almaq lazımdır ki, metodika dərs prosesinin bütün mərhələləri üçün hazır reseptlər vermək vəzifəsini güdmür, müəllimi təlim prosesinin qanunauyğunluqları haqqında bilik və priyomlarla təchiz edir, onun metodiki ustalığı üçün daha əlverişli şərait yaradır.

Pedaqoji texnologiya olan fərdiləşdirmə təlimdə geri qalan şagirdlərin təfəkkür və nitqinin inkişafına istiqamət verməkdə, eləcə də tarixə xüsusi maraq göstərən istedadlı şagirdlərin tələbatını təmin etməkdə əhəmiyyətli rol oynayır. Bununla belə, «Tarix»in tədrisi prosesində digər fənlərlə əlaqə də yaddan çıxmamalıdır. Fənlərarası əlaqələr (inteqrasiya) aşağıdakılardan ibarətdir:

- digər fənlərin tədrisində qazanılmış biliklərə, bacarığa və vərdişlərə istinad edilməsindən;
- şagirdlərin təfəkkür və nitqinin bütün tədris fənləri üçün ümumi olan inkişafından.

V-VI siniflərdə «Tarix»in tədris edilməsi şagirdlərin tarixdəki hadisələri elementar şəkildə başa düşməsinin, tarixi inkişafın ibtidai şəkildə anlaşılmasının əsasını qoyur. Bu siniflərdə tarixi biliklərin tərbiyəvi təsiri onların şərhinin inandırıcılığından və emosionallığından asılıdır. Tarixi hadisələrə verilən qiymətləri və çıxarılan nəticələri məktəblilər üçün inandırıcı etmək «Tarix»

fənninin təliminin digər vəzifəsidir. Şagirdlər üçün həqiqət kimi qəbul etdikləri ümumi müddəalar deyil, fəal təfəkkür əsasında gəldikləri nəticələr daha inandırıcıdır. Qədim dünya və orta əsrlərə dair biliklərə yiyələnərkən igidlik, vətənsevərlik, tolerantlıq, işğalçılara nifrət və digər əxlaqi xüsusiyyətlərin tərbiyəsi kimi təlimin ən mühüm tərbiyəvi vəzifələrinin həlli əsas şərtlərdəndir. Tarixə dair əldə etdikləri biliklər şagirdlərdə gərəksiz məlumat kimi qalmamalı, yeni məzmunlu, dərin və şüurlu biliklərin qazanılmasına xidmət etməlidir.

«Dərslikdəki izah edilməmiş hər söz çörəkdəki zəhər toxumu kimi bir şeydir» məntiqinə əsaslansaq, aydın olmayan bir söz bütöv cümlənin başa düşülməməsinə səbəb ola bilər. 11-12 yaşlı uşağın şüurunda tarix kursundan ona tanış olan termin, adətən, konkret tarixi obraz-təsəvvür yaradır. Hətta söz ümumiləşdirilmiş anlayış, məsələn, qul, feodal, manufaktura bildirdikdə belə, şagirdlərdə çox zaman dərslikdən və yaxud «tarixi tablodan»əxz olunmuş tipik bir obraz yaranır. Uzaq keçmişin hadisələri haqqında təsəvvürlər zəif olduqda,V-VI sinif şagirdləri özlərində çatışmayan tarixi təsəvvürləri müasir həyatdan götürülmüş obrazlarla tamamlayırlar.

«Tarix»in təlimində şagirdlər tarixi hadisələrin həm keyfiyyət cəhəti, həm də kəmiyyət cəhəti ilə, yəni hadisələrin miqdarı, onların böyüklüyü ilə rastlaşırlar. Tarixi proses həmişə məkan və zaman daxilində baş verir. Bu fənnin təlimində məkan lokalizasiyasının (məhdudlaşdırılmasının) xüsusi əhəmiyyəti vardır. Məkanın təyin edilməsi coğrafi mühiti göstərməyə imkan verir. Coğrafi mühitin isə cəmiyyətin inkişafına təsiri çox böyükdür. V sinif şagirdlərində tez-tez, VI sinif şagirdlərində isə bəzi hallarda belə təsəvvür yaranır ki, öyrəndikləri hadisələr elə əvvəl olan hadisələrdir. Məsələn, əgər VI sinif şagirdlərinə tapşırıq versək ki, qədim Şərq tarixinin faktlarını xronoloji ardıcıllıqla düzsünlər, onlar əvvəlcə Misirin, sonra isə Mesopotamiyanın və s. tarixi hadisələrini qeyd edəcəklər. Qarşılıqlı əlaqədar olan və bir-biri ilə münasibətdə götürülən xronoloji tarixlər sistemi şagirdlərin şüurunda «kanva» (hadisələrin əsası) yaradır. Bu zaman nə qədər çoxcəhətli zaman münasibətləri müəyyən edilirsə (hansı hadisə hansından əvvəl və ya sonra olub, nə qədər əvvəl olub, prosesin başlanğıcı ilə sonu arasından nə qədər vaxt keçib, əsrin başlanğıcı və sonu, hadisənin tarixi və bizim zəmanəmiz və s. necə əlaqələndirilir), bütövlükdə xronoloji «kanva» və onun üzərindəki hər bir tarix də bir o qədər şüurlu mənimsənilir.

V-VI siniflərdə «Tarix» və «Ədəbiyyat» fənlərinin təlimində şagirdlərin vətənpərvərlik, tolerantlıq, elmilik, estetik və əxlaq tərbiyəsinin ümumi elementləri vardır. Tarix dərslərində şagirdlərin yazılı və şifahi nitqində verilən tələbləri gözləmək, xüsusi adların və terminlərin tələffüzündə və yazılışında düzgünlüyə, dəqiqliyə nail olmaq lazımdır.

Tarixə dair dərs vəsaitləri pedaqoji əməyin elə «alətləridir» ki, onlar vasitəsilə fənnin təlimi nəinki möhkəm biliklər verir və tərbiyə edir, həm də məktəblilərə bu alətlərdən istifadə etməyi öyrədir, tarixi biliklərə dair müxtəlif mənbələrlə işləmək bacarığı formalaşdırır. V sinfə dair vəsaitləri üç əsas qrupa bölmək olar: sənədli xarakter daşıyan yazılı və maddi abidələr və onların yenidən çap olunmuş nüsxələri; tarixin elmi-kütləvi formada şərh edilməsini əks etdirən audiovizual vəsaitlər; təsviri incəsənət və ədəbi əsərlərdə tarixi gerçəkliyin əks etdirilməsinə dair vəsaitlər.

Qədim dünya və orta əsrlərə dair dərs vəsaitləri olan sənədli mənbələri də 3 tipə bölmək olar:

1) Maddi mədəniyyət abidələri, təsviri sənət abidələri və yazılı qaynaqlar. Pedaqoji təsir gücünə görə heç bir təsvir qədim insanın öz əlində tutduğu və min illər torpağın altında yatıb qalan alətlə, həmçinin qədim şəhər və ya orta əsr qəsrinin xarabalıqlarına edilən ekskursiyalarla müqayisə edilə bilməz.

2) Qədim dünya və orta əsrlərin təsviri sənət əsərləri. Bu mənbələrin özü də iki yarımqrupa ayrıla bilər: maddi gerçəkliyi bilavasitə təsvir edən əsərlər: adamları əhatə edən mühit, onların düzəltdikləri alətlər, coğrafi

mühiti; tanrılar, mifoloji qəhrəmanlar və s. haqqında insanın əfsanəvi təsəvvürlərini əks etdirən əsərlər. Təsviri sənət abidələrindən tarixə dair tədris vəsaiti kimi istifadə edilməsi həmin əsərlərin müasiri olan adamların ideyalarını, baxışlarını, etiqadlarını və arzularını əyani və inandırıcı surətdə göstərməyə kömək edir. İbtidai insanlarda incəsənətin meydana gəlməsi faktının özü şagirdlər üçün ibtidai insanın inkişafının inandırıcı sübutudur. Məktəblilər başa düşürlər ki, Alt Paleolit dövrünün mağara rəngkarlığını və heykəltəraşlığını yaratmaq üçün insanın inkişaf etmiş əlləri və əqli lazım idi.

Tarixə dair dərs vəsaiti kimi istifadə edilən incəsənət əsərləri şagirdlərin estetik tərbiyəsinə kömək edir. İncəsənət əsəri ilə aparılan işin ikinci pilləsini bu əsərin əsasında təkcə maddi həyat haqqındakı qazanılan biliklər deyil, həm də cəmiyyətin ideologiyası haqqında qazanılan biliklər təşkil edir.

3) Yazılı abidələr. Bu mənbələri şərti olaraq bir neçə qrupa bölmək olar. Birinci qrupa öz dövrünün sənədləri — qanunlar, əmrlər, təsərrüfat yazıları, müqavilələr, siyasi nitqlər, məhkəmə hökmləri, dualar, hədislər və s. aiddir. Bu zaman yaddan çıxarmaq olmaz ki, uşaqlara təklif edilən sənədlər qısa olmalıdır. Həcmcə iri materiallardan yalnız daha təsirli və mühüm fraqmentlər seçilməlidir. Məsələn, Hammurapinin qanunlarından 3-4 maddənin seçilməsi az vaxt sərf etməklə müsbət nəticələr verir. İkinci qrupu tarixi-coğrafi sənədlər təşkil edir. Bunlara ya hadisələri öz gözü ilə görən və həmin hadisələrin müasirləri olan adamlar tərəfindən yazılmış salnamələr, xronikalar, memuarlar və s. daxildir. Üçüncü qrupa bədii söz abidələri – əfsanələr, dastanlar, mahnılar, təmsillər və ədəbi əsərlər (nəsr, nəzm, dramaturgiya, satira) daxildir. Bunlardan istifadə məktəblilərə müsbət tərbiyəvi təsir göstərməklə, onlarda tənqidi yanaşma qabiliyyəti formalaşdırır. Dördüncü qrupa hikmətli sözlər, zərbi-məsəllər, obrazlı ifadələr aid edilə bilər. Hikmətli sözlərdən istifadə edilməsi o zaman məqsədəuyğundur ki, belə kəlamlar diqqəti mühüm tarixi anlara cəlb etsin. Bu bir həqiqətdir ki, «Tarix»in təlimi zamanı başlıca yer ilk mənbələrə deyil, tarixi prosesi elmi-kütləvi formada işıqlandıran vasitələrə məxsusdur. Bu zaman yığcam şəkildə ən mühüm hadisələr haqqında canlı surətdə söhbət gedir, tarixi hadisələrin və xadimlərin obrazlı xarakteristikaları verilir.

Elmi kütləvi mətn və ya müəllif mətni adlandırılan bu formada şagirdlərin başa düşəcəyi şəkildə faktlar təhlil edilir və ümumiləşdirilir. Tarixi materialın elmi-kütləvi cəhətdən işıqlandırılmasının başlıca forması müəllif mətni olsa da, bu heç də yeganə forma deyildir.

Pedaqoji təcrübəmə əsaslanaraq, dərs prosesində tarixə dair tədris vəsaitlərinin aşağıdakı formalarından da istifadə edirəm:

I. Tədris cədvəlləri;

II. Sxematik rəsm;

III. Kartoqrafik vəsaitlər;

IV. Məntiqi sxemlər.

Məntiqi sxemlər çertyojda hadisələrin təhlilini və sintezini göstərir. Belə sxemlərin məzmununun daha dərin və şüurlu surətdə mənimsənilməsinə onun yeni material izah edilərkən şagirdlərin bilavasitə gözü qarşısında çəkilməsi və doldurulması kömək edir. Buna 1-ci sxemdə «Qədim Misirin idarəetmə orqanları» ilə bağlı verilmiş nümunəni misal göstərmək olar.

Tarixə dair tədris vəsaiti olan applikasiyalar öyrənilən dövr üçün tipik olan ayrı-ayrı əşyaların, müxtəlif ictimai qrupların və s. təsviridir. (Məsələn, ətrafında su olan bir neçə papirus gövdəsinin təsviri – Nil deməkdir; mallarla yüklənmiş araba orta əsrlərdə kənd ilə şəhər arasında mal mübadiləsini göstərir; əsgər fiquru bütöv qoşunun simvoludur və s.).

Tarixi hadisələr haqqındakı ümumiləşdirilmiş biliklərin daşıyıcısı olan applikasiyalardan isdifadə olunması onlar arasındakı yeni əlaqələri və münasibətləri əyani şəkildə açıb göstərmək ücün şərait yaradır. Qədim dünya və Orta əsrlər tarixinə dair applikasiyaların düzəldilməsi çox yaxşı olardı. Mən applikasiyaların hazırlanması işinə şagirdləri də cəlb edirəm.

Sxem 1. **Qədim Misirin idarəetmə orqanları**

**Firon tam hakimiyyətə malik idi**

⇓ **Ali məmur (çati) təsərrüfat həyatını və məhkəmə orqanlarını idarə edirdi. Dəftərxana ona tabe idi.**
- ⇓ **Məmurlar (təsərrüfat işləri, məhkəmə orqanları)**
- ⇓ **Dəftərxana, xəzinə**

⇓ **Hərbi rəis (hərbi işlərə başçılıq edirdi)**
- ⇓ **Qoşun başçıları, döyüşçülər**

Sxem 2. **E.ə. VIII-VI əsrlərdə Afinada quldarlığın mənbələri və qullardan istifadə edilməsi**

**Qul bazarı**

⇓ **Əsirlər, dəniz quldurluğu**
- ⇓ **Borca görə satınalma**
- ⇓ **Qul uşaqları**

⇓ **Mədənlər**
- ⇓ **Ev xidmətçiləri, kənd təsərrüfatı, sənətkarlıq**

Tarixin təlimində əyani vəsaitlərdən istifadə şagirdlərin hansı həcmdə məlumat alması ilə, bu məlumatların biliklərin obrazlılığına, emosionallığına, biliklərin dərk edilməsi və möhkəmliyinə necə təsir etməsi ilə, vəsaitlə aparılan işin şagirdlərin inkişafına, onlarda bacarıq və vərdişlərin aşılanmasına kömək etməsi ilə müəyyən olunur. E.ə. VIII-VI əsrlərdə Afinada quldarlığın mənbələri və qullardan istifadə edilməsi cədvəlinə (Sxem 2) baxaq.

«Tarix» fənninin tədrisi zamanı müəllimin işində, xüsusilə V-VI siniflərdə təlim prosesində şagirdlərdə diqqət oyatması və bu diqqətin mühafizə olunması mühüm yer tutur. Parlaq süjetli materialı şərh edərkən, rəngli emosional tablo göstərərkən və yaxud müvafiq videofilm nümayiş etdirərkən şagirdlərin diqqətini səfərbər etmək heç də çətinlik törətmir. Mənimsənilməsi ciddi fikri iş tələb edən materialı öyrənərkən uşaqların diqqətinin həmin materiala cəlb edilməsi olduqca çətindir. Təhsilalanların diqqətini səfərbər etmək üçün təlimin elə təşkili formalarından istifadə olunmalıdır ki, bu zaman şagirdlər həmin prosesin fəal iştirakçıları ola bilsin. Tarix dərsində müəllimin canlı sözü məktəblinin şəxsiyyətinə mənəvi təsirin ən güclü vasitələrindən biridir. Tədris vəsaitinin metodik forması necə olursa-olsun, tədris prosesində ondan istifadə edilməsinin xarakterini və yerini müəllim həll edir.

Şagirdlərin təfəkkürünün müntəzəm inkişafı, onlarda bacarıq və vərdişlərin formalaşması «Tarix» təliminin məqsədlərindən biri və tarixi biliklərin mənimsənilməsinin zəruri və ilkin şərtidir. Bir çox pedaqoqların fikrincə, fikri fəaliyyət üsullarına yiyələnmək, bu üsulları şagirdlərin intellektual, fikri bacarıqları deyilən bacarıqlara çevirmək prosesi deməkdir. Təlim prosesində təhsilalanların təfəkkürünün inkişafına dair aparılan işin öz spesifik məqsədləri və xüsusiyyətləri vardır. Nitq inkişafı da şagirdlərdə təfəkkürün inkişafı və onlarda əqli əmək bacarığı və vərdişlərinin formalaşması ilə əlaqədardır. Müəllimin danışığı, dərsliyin mətni, tarixi sənədlər, elmi-kütləvi

və bədii-tarixi ədəbiyyat əsərləri təkcə ən mühüm söz qaynağı deyil, həm də şagirdlərin nitqini inkişaf etdirmək vasitələridir.

«Tarix»in təlimində formalaşdırılan bacarıqları şərti olaraq aşağıdakı şəkildə qruplaşdırmaq olar:

- tarixi biliklərin qaynaqlarını təhlil etmək, tarixi hadisələr haqqındakı ən mühüm cəhətləri, onların mühüm əlamətlərini və əlaqələrini ayırmaq, tarixi anlayışların tərifini vermək;
- tarixi biliklərin məzmununu məntiqi surətdə hissələrə ayırmaq;
- tarixi faktları və prosesləri məhdudlaşdırmaq, onları bir-biri ilə əlaqələndirmək, xronoloji və sinxron cədvəllər tərtib etmək;
- tarixi hadisələri məkanda məhdudlaşdırmaq, tarixi xəritəni «oxumaq», onun şərti işarələrindən savadlı şəkildə istifadə etmək;
- tarixi hadisələri, əhvalatları müqayisə etmək, onlardakı ümumi və spesifik cəhətləri tapmaq;
- tarixi faktların təhlili və müqayisəsi əsasında nəticələr qurmaq və nəticələri əsaslandırmaq;
- tarixi materialı şifahi və ya yazılı şərh etmək, şərhin bütün növlərindən (təsvir, xarakteristika, izahetmə və s.) istifadə etmək, suallara istər yığcam, istərsə də geniş cavab vermək və bu sualları öz yoldaşlarına da vermək, onların cavablarına rəy vermək (şifahi, yaxud yazılı);
- İKT-dən istifadə etməklə məlumatlar, məruzələr, informasiyalar hazırlamaq və onu təqdim etməyi bacarmaq;
- tarixi mətnin məzmununun, müqayisənin, nəticənin, habelə öz cavabının planını və s. tərtib etmək, məlumat xarakteri daşıyan tarixi ədəbiyyatdan istifadə etmək.

Tarix müəllimi, ilk növbədə aşkar etməlidir ki, o bu və ya digər sinifdə əvvəllər təşəkkül tapmış bilik və bacarıqların hansı dairəsinə istinad edə bilər. Ayrı-ayrı şagirdlərdə hansı bacarıqlar zəif inkişaf etmişdir və yaxud heç yoxdur. Beləliklə də, müxtəlif şagirdlər qrupuna və ayrı-ayrı şagirdlərə diferensial yanaşma üsulu formalaşır. Yadda saxlamaq lazımdır ki, eyni yaşdan və sinifdən olan şagirdlər üçün bacarıqların inkişaf səviyyəsi müxtəlifdir. Metodikada hələ kifayət qədər müəyyən edilməmişdir ki, V-VIII sinif şagirdləri «Tarix» fənninin təlimində bu və ya digər bacarığa hansı dərəcədə yiyələnirlər. V sinifdə ilk məşğələlərdən başlayaraq məqsəd kiçik hissələrə asanlıqla ayrılan mətnin mühüm məzmununu ayırmağı, onun başlıca mənasını tapmağı, sonra isə öz sözləri ilə qısaca və dürüst ifadə etməyi öyrətməkdən ibarətdir. «Tarix»in təlimində şagirdlərin təfəkkürünü və nitqini inkişaf etdirmək üçün sinifdə lüğət işinin təşkili, habelə evdə lüğət tapşırıqlarının yerinə yetirilməsinin böyük əhəmiyyəti vardır. Tarixi öyrənərkən şagirdlər çoxlu söz öyrənir və bu sözlərlə öz nitqlərini zənginləşdirirlər. Əşyanın adını bildirən bəzi yeni sözlərin məzmununu həm bu əşyaların özünü və yaxud şəklini sözlə izah etməklə, həm də nümayiş etdirməklə açmaq olar (məsələn: xış, kotan, kirki, nizə).

Dərs prosesində təlim və tərbiyə metodları arasında qarşılıqlı əlaqə yaratmaq üçün ənənəvi metodlarla yanaşı interaktiv metodların müxtəlif üsullarından istifadə etmək olar. Təlim və tərbiyə prosesində şagird nəticəni özü əldə etdikdə dərs maraqlı, mənimsəmə şüurlu və tərbiyəedici olur. Dərsləri elə qurmaq lazımdır ki, şagirdlər növbə gözləməsinlər. Bilsinlər ki, hər an bu və ya digər tapşırıq və ya sualın cavabı onlardan soruşula bilər.

Təlim-tərbiyə işinin müvəffəqiyyətli həllinin sirri məhz təlim-tərbiyə üsullarının düzgün seçilməsi və qarşılıqlı vəhdətidir.

VII sinifdə «Azərbaycan tarixi» fənnindən «XVI əsr Azərbaycan mədəniyyəti» mövzusunu tədris edərkən bildirirəm ki, Səfəvilər dövlətinin yaranması ilə əlaqədar Təbriz şəhəri yenidən iqtisadi, siyasi və mədəni mərkəz kimi yüksəldi. Füsunkar gözəlliyi, emosional təsir qüvvəsinə görə yüksək bədii-estetik dəyərə malik olan Azərbaycan miniatür sənətinin tarixi haqqında məlumat verməklə uşaqlara Təbriz miniatür ustalarından Soltan

Məhəmmədi tanıyırsınızmı? sualı ilə müraciət edirəm. Daha sonra onlara «Azərbaycan miniatürləri» adlı kitabda Soltan Məhəmmədin çəkdiyi rəsmləri göstərirəm. Bu rəsmlərin hansı əsərlərə aid olduğu, harada saxlandığı haqda məlumat toplamağı ev tapşırığı kimi verirəm [Azərbaycan miniatürləri. 1980. rəsmlər – 16,34.55 və s.].

Bədii zövq eşitmə, görmə, dinləmə və mütaliə ilə bilavasitə bağlıdır. Ailədə və uşaq bağçalarında təməli qoyulmuş bədii zövq ibtidai siniflərdə fənlərin, xüsusilə oxu, texnologiya, təsviri incəsənət, musiqi fənlərinin tədrisi zamanı, habelə sinifdənxaric və məktəbdənkənar işlər vasitəsilə möhkəmləndirilir, yuxarı siniflərdə isə daha da inkişaf etdirilərək formalaşdırılır. Rəssamlıq əsərinin «tərcüməyə» ehtiyacı yoxdur, lakin onu «oxumaq» heç də asan deyil. Fransız yazıçısı Onore de Balzak haqlı olaraq deyirdi ki, «Baxmaq heç də görmək deyildir». Ona görə çalışıram ki, şagirdlər rəssamlıq əsərlərini qiymətləndirərkən əsl bədiilik meyarını müəyyənləşdirə, əsərin spesifik əlamətlərini, bədii təsvir vasitələrini dərk edə bilsinlər.

Tarixin təlimi dünyagörüşünə dair biliklərin formalaşmasına, şagirdlərdə əxlaqi tərbiyəyə, Vətənə, əməyə, insana sevgi, amansızlığa və ədalətsizliyə qarşı barışmazlıq tərbiyəsinə mühüm töhfə vermiş olur. Bu mənada II Dünya və Qarabağ müharibəsi ilə əlaqədar yerli tarixi materialların şagirdlər tərəfindən araşdırılması da mühüm əhəmiyyət kəsb edir.

IX sinif «Azərbaycan tarixi»ndən «Azərbaycan SSR İkinci Dünya müharibəsi illərində» və XI sinif «Azərbaycan tarixi»ndən «Azərbaycan döyüşçüləri ön cəbhədə» mövzularını keçərkən diyarşünaslıq materiallarına müraciət edərək göstərirəm ki, azərbaycanlılar da 1941-1945-ci illərdə faşizmə qarşı mübarizəyə qalxmış, qəhrəmanlıqlar göstərmişlər. Söhbəti müasir həyatla əlaqələndirir, torpaqlarımızın azadlığı uğrunda erməni faşistləri ilə vuruşaraq qəhrəmanlıqlar göstərmiş həmyerlilərimiz haqqında söhbətlər aparıram. Şagirdlərdə Vətənə məhəbbət hissini artırmaq məqsədi ilə torpaqlarımızın azad olunması uğrunda vuruşaraq şəhidlik zirvəsinə ucalan soydaşlarımız haqqında zəruri məlumatlar verirəm. Təcrübə göstərir ki, mövzu ilə əlaqədar şagirdlər öz topladıqları xatirələri söyləyəndə bu çox təsirli olur. Mən öz ata-babaları, soydaşları haqqında xatirələr toplamaq işinə şagirdlərin özlərini cəlb edirəm. Bu bir tərəfdən təlim-tərbiyənin vəhdətdə götürülməsinə müsbət təsir göstərir, digər tərəfdən isə şagirdlərin doğma diyara məhəbbətini qat-qat artırır.

Məktəbdə tarixə dair tədris-tərbiyə işinin təşkilinin əsas forması dərs olduğundan müəllim şagirdlərin təhsilinə, tərbiyəsinə və idrak qabiliyyətlərinin artırılması, bacarıq və vərdişlərinin formalaşmasına xüsusi diqqət yetirilməlidir. Hər bir tarix dərsi şagirdlərə möhkəm bilik verməklə yanaşı, həm də onları tərbiyə etməlidir.

### İstifadə edilmiş ədəbiyyat


1. Ağayev Ə. ( 2011) Seçilmiş Pedaqoji əsərlər. Bakı. I cild.
2. Ağayev Ə. (2016) Seçilmiş əsərləri. Bakı. VII cild.
3. Azərbaycan miniatürləri. Bakı, 1980.
4. Azərbaycan tarixi V sinif. (2016) Y.Mahmudlu, H.Cabbarov, L.Hüseynova. Bakı.
5. Azərbaycan tarixi VI sinif. (2017) V.Əliyev, İ.Babayev, H.Cəfərov, A.Məmmədova. Bakı.
6. Azərbaycan tarixi VII sinif. (2018) Y.Mahmudlu, Q.Əliyev, L.Hüseynova, S.Ağayev, S.Bəhrəmova, H.Əlişova, B.Xubiyarov. Bakı.
7. Azərbaycan tarixi VIII sinif. (2017) Y.Mahmudlu, H.Əişova, L.Hüseynova, H.Cababrov,E.Mustafayeva, S.Bəhrəmova. Bakı.
8. Azərbaycan tarixi. AMEA. A.Bakıxanov adına Tarix İnstitutu. Bakı, 2007. I–IV cildlər.
9. Azərbaycan tarixi. X sinif (2017) T.Əliyev, P.Ağalarov, N.Quliyev, E.Qasımov, F. Babayev, E.Hüseynov, K.Əsədov, R.Məmmədov. Bakı.
10. Azərbaycan tarixi. XI sinif (2018), P.Ağalarov, N.Quliyev, R.Hətəmov, F.Babayev, E. Qasımov, E.Hüseynov, H.Cabbarov, S.Bəhrəmova, A.Hüseynov. Bakı.

11. Azərbaycan tarixi. IX sinif (2016) Y.Mahmudlu, Q.Əliyev, M.Abdullayev, L.Hüseynova, H.Cabbarov, Bakı.
12. Əsədov S. Cəlaləddin Məhəmməd Münəccim Yəzdi və onun «Tarixi-Abbasi» əsəri haqqında. (1972) Az. SSR EA Xəbərləri, tarix, fəlsəfə, hüquq seriyası, №2.
13. Kazemzadeh, F. The Struggle For Transcaucasia: 1917—1921, The New York Philosophical Library, 1951, p. 143.
14. Kərimov Y.Ş. (2009) Təlim metodları. Bakı.
15. Kramers J.H. (1952). Geography and Commerce. The legacy of Islam. Edit: Sir Thomas Arnold, Alfred Gulaume, London.
16. Makarenko A.S. (1948) Tərbiyə işləri haqqında. Bakı, Azərnəşr.
17. Mikayıllı B. (2015) Yaradıcılıq axtarışları. Bakı.
18. Mikayıllı B. (2016) Müasir dərs: Yeni yanaşmalar. Bakı.
19. Nəcəf Ə. (2017) Aran atabəyləri. «Başla», Bakı. 428 s.
20. Ümumi tarix (2017) Y.Mahmudlu, S.Ağayev, T.Nəcəfli, B.Xubiyarov, A.Kərbalayeva. Bakı.
21. Ümumi tarix (2018) P.Ağalarov, N.Quliyev, H.Cabbarov, E.Hüseynov. Bakı.
22. Ümumi tarix (2018) Y.Mahmudlu, L.Hüseynova, B.Xubiyarov, S.Ağayev, S.Bəhrəmova, H.Əlişova. Bakı.
23. Ümumi tarix. (2016) Y.Mahmudlu, T.Nəcəfli, K.Məmmədov, S.Bəhrəmova, S.Ağayev. Bakı
24. Ümumi tarix. (2017) T.Əliyev, R.Hətəmov, N.Quliyev, P.Ağalarov, Ş.Əmrahov, F. Babayev, E.Qasımov, K.Əsədov, E.Hüseynov. Bakı.
25. Ümumi tarix. (2017) V.Əliyev, İ.Babayev, A.Məmmədova. Bakı.
26. Азербайджанская Демократическая Республика (1918—1920). Внешняя политика. (1998) (Документы и материалы). Баку. с. 14-17.